Adımız məfkurəmizdir
№32 9 – 15 sentyabr 2025-ci il
Türküstan
www.turkustan.az



Adilə Nəzərova
Filologiya üzrə fəlsəfə doktor

# Tarixdən bu günə körpü

## (Ələsgər Siyablının "Yəhudilər və türklər: tarixi-etnik münasibətlərin xülasəsi" kitabı haqqında)

(əvvəli ötən sayımızda)

*Nəticə etibarı ilə kitab tarixdən gələn ağrıların, yanlış anlaşılan hadisələrin və uzaqlaşmaların üzərində sülh salmaq məqsədi ilə yazılıb, - desək səhv etmərik.*

*"Yəhudilər və türklər: tarixietnik münasibətlərin xülasəsi" kitabında müəllif Osmanlı dövründən müasir dövrlərə qədər yəhudilər və türklər arasındakı tolerantlıq və birgəyaşayış haqqında mülahizələrinə tarixi zəmin yaradır. Belə ki, o, kitabın əvvəlində Osmanlı imperiyasının yəhudi icmasına münasibətini detallı şəkildə araşdırır. Müəllifə görə, 1492-ci ildə İspaniya inkvizisiyasından qaçan Sefard yəhudilərinin Osmanlıya sığınması bu münasibətlərin başlanğıc nöqtəsi sayılır.*

*Kitabda vurğulandığı kimi, Osmanlı dövründə yəhudilər əsasən ticarət, sənət və elmdə fəal iştirak edib, çox vaxt dövlət tərəfindən qorunub: "Osmanlı torpaqlarında yəhudilər yalnız sığınacaq tapmamış, eyni zamanda mədəni və iqtisadi həyatın fəal iştirakçılarına çevrilmişdilər."*

Bu dövrdə məscidlərin, sinaqoqların və digər mədəni mərkəzlərin bir-birinə yaxın olması, türklərlə yəhudilər arasında qarşılıqlı hörmət və anlaşmanın göstəricisi olaraq təqdim olunur.

Müəllif Səfəvi və Qacar dövründə baş verən siyasi dəyişikliklər və sosial gərginlikləri də tədqiq edir. Kitabda qeyd olunur ki, Səfəvi imperiyası dövründə dini fərqlər müəyyən məhdudiyyətlər yaradırdı, amma ümumilikdə yəhudi icmaları mövcudluğunu qoruyub saxlayırdı. "Qacarlar dövründə yəhudilərin sosial statusu dəyişirdi; bəzən təzyiqlər artsa da, onlar öz mədəni irslərini qorumağı bacardılar."

Kitabda XX əsrin əvvəllərində Osmanlı torpaqlarında və Türkiyədə millətçilik hərəkatlarının yüksəlişi zamanı yəhudi icmalarına qarşı müəyyən şübhə və təzyiqlər olduğu qeyd olunur. Eyni zamanda, Avropadan gələn antisemitizm meylləri Türkiyəyə də təsir etmişdi ki, Avropa antisemitizminin təsiri Türkiyədə də hiss olunurdu; lakin Osmanlı mirası olan tolerantlıq ən azı müəyyən qədər qorunurdu.

1948-ci ildə İsrail dövlətinin yaradılması ilə türk-yəhudi münasibətlərində həm əməkdaşlıq, həm də gərginlik dövrləri yaşanıb. Kitabda bu mərhələ dərindən təhlil edilir, xüsusilə də 2000-ci illərdə Qüds və Qəzza məsələlərindən sonra diplomatik soyuqluğun yüksəlməsi diqqət çəkir. "Siyasi gərginliklərin dərinliyi tarixi, mədəni və sosial əlaqələrin üstündən kölgə salır, lakin o əlaqələr tamamilə silinmir."

Kitabda həmçinin iki xalq arasında ortaq iqtisadi və təhsil sahəsindəki əlaqələr təhlil olunur. Məsələn, Türkiyədə yaşayan yəhudi icmasının iqtisadiyyatda, xüsusilə ticarət və sənayedə rolu, eləcə də ortaq mədəni tədbirlər qeyd olunur. "Birgə əməkdaşlıq və qarşılıqlı iqtisadi fayda, həmçinin təhsil mübadiləsi insanları yaxınlaşdıran əsas faktorlardan biridir." Müəllif xatırladır ki, bu əlaqələr yalnız maddi müstəvidə deyil, həm də mədəniyyətlərarası dialoq baxımından böyük əhəmiyyət kəsb edir.



Kitabda xüsusi fəsil Azərbaycan və onun çoxmillətli cəmiyyətində yəhudi-türk münasibətlərinə həsr olunub. Qırmızı Qəsəbədə yaşayan dağ yəhudiləri, onların tarix boyu türklərlə sıx əlaqələri, Qarabağ müharibəsində birlikdə vuruşmaları maraqlı faktlarla təqdim olunur.

*Bu fəsil oxucuda həm vətənpərvərlik hisslərini artırır, həm də müasir gərginliklər fonunda daha sakit, dərinləşmiş dialoqun zəruriliyini ortaya qoyur.*

*Ələsgər Siyablının dili elmi-analitik olmaqla bərabər, həm də bədii-publisistik incəlikləri əhatə edir. Oxucuya tarixi faktlar təqdim edilərkən onların arxasında duran insan taleləri, acılar və ümidlər obrazlı şəkildə çatdırılır. Müəllif, oxucu ilə səmimi dialoq quraraq, tarixi hadisələrin insan üzərində təsirini, mədəniyyətlərin bir-birinə toxunuşunu, qarşılıqlı anlaşmanın mümkünlüyünü və s. ən güclü bədii üslubla göstərir. Hər fəsil sanki müxtəlif zamanlarda çəkilmiş film epizodları kimi təqdim olunur, oxucunu düşünməyə və hiss etməyə çağırır.*

Ələsgər Siyablı qədimdən bu günə qədər türklərlə yəhudilər arasında baş verən etnik-mədəni əlaqələri həm tarixi mənbələr, həm də mifoloji paralellərlə işıqlandırır. Müəllif oxucunu Səmavi dinlərin doğulduğu torpaqlardan Orta Asiyanın bozkırlarına, oradan Qafqaza və Balkanlara qədər uzanan uzun bir səyahətə aparır.

Tarixdə çox az millət vardır ki, bir-biri ilə ticarət, dini təmaslar, sosialmədəni əlaqələr qurub, lakin heç vaxt bir-birinə qarşı qətliam, kütləvi zorakılıq törətməyib. Türklərlə yəhudilər bu nadir nümunələrdəndir. Xəzər xaqanlığının iudaizmə meyli, Osmanlı sultanlarının İspaniyadan qovulan sefard yəhudilərini qəbul etməsi və onlara dövlətin mühüm inzibati, iqtisadi mövqelərini həvalə etməsi – bunların hər biri qarşılıqlı etimada əsaslanan bir tarixdir. Müəllif qeyd edir ki, "İsrail xalqını əzəmətli bir ağaca bənzətsək turanlılar və samilər onun iki möhtəşəm qolunu təşkil edir.Aşkenazlar turanlı türkləri, sefardlar isə samiləri təmsil edirlər.Yəhudi etnosunun aparıcı etnik ünsürünü aşkenazlar təşkil edir."

Ələsgər Siyablı bu epizodları sadəcə qeyd etmir, onların dərin tarixi-mədəni kontekstini də açır: "Ərəbləri türklərlə yalnız dini mənsubiyyət birləşdirdiyi halda yəhudilərlə türkləri min illiklərlə tarixə malik olan etnik qohumluq əlaqələri birləşdirir." Müəllifə görə, "Bir çox Avropa alimləri və o cümlədən F.Lenorman yəhudilərin və türklərin eyni atadan doğulan iki qardaşdan törədiklərini yazır. Tövratda Adəmin oğlu Qabilin törəməsi olan Matuşaelin oğlu Lamek həm yəhudilərin və həm də turanlıların əcdad atası hesab olunur.Turanlılar Lamekin Silla adlı arvadından olan Tubalkain adlı oğlundan, yəhudilər isə Ada adlı arvadından olan Yuval adlı oğlundan törəmişlər." bu da o deməkdir ki, türklər və yəhudilər arasında düşmənlik yox, paralellik var idi. Onlar eyni coğrafiyada yaşadıqları zaman bir-birini təhdid deyil, fürsət kimi gördülər.

Azərbaycan tarixində də yəhudilərlə türklərin münasibətləri nadir barış nümunəsidir. Quba, Oğuz, Bakı kimi bölgələrdə yüzillərlə yəhudi icmaları ilə yerli türklər arasında birgəyaşayış və qarşılıqlı hörmət mühiti formalaşıb. Kitabda müəllif bu coğrafi və sosial mühitə də toxunur. O, Azərbaycanın milli-mənəvi tolerantlıq modelini xüsusi vurğulayır.

Ələsgər Siyablının apardığı tədqiqatda bir fikir diqqət çəkir: yəhudi mədəniyyəti və dili ilə türk dili arasında müəyyən leksik və dini-mifik paralellər də tapılır. Bu isə sübut edir ki, birgə yaşamaq təkcə coğrafi deyil, həm də mədəni sintezlər doğurur.

XXI əsrdə, xüsusilə Yaxın Şərqdə baş verən qarşıdurmalar fonunda dünya siyasəti bir daha sübut edir ki, etnik və dini münasibətlərin sabitliyi heç də tarixin arxivində deyil – indi və burada, bu gün də aktuallığını qoruyur.

Kitab bu baxımdan sadəcə retrospektiv yanaşma deyil, həm də mədəni diplomatiya və ideoloji yumşalma vasitəsidir. Ə.Siyablının yazdığı faktlar sübut edir ki, xalqlar arasında tarixi anlaşma varsa, bu, müasir gərginlikləri də azalda bilər. Yəhudi və türk xalqları arasında yaranan tarixi inam, bugünkü siyasi oyunlardan üstün ola bilər – yetər ki, biz bu yaddaşı diri saxlayaq.

Ən əsası isə budur: kitab düşmən obrazı yaratmağa deyil, anlaşma mühiti qurmağa xidmət edir. Ədəbiyyatda, folklorda, dini mətnlərdə tez-tez rast gəldiyimiz bir həqiqət var: xalqlar bir-birinin mifində görünəndə, bu, onların tarixdə də birgə iz qoyduğuna işarədir. Ələsgər Siyablı bu kitabında türklərlə yəhudiləri sadəcə "yan-yana gəlmiş etnoslar" kimi yox, bir-birinin yaddaşında yaşayan mədəni fiqurlar kimi təqdim edir.

Kitabda göstərilən tarixi faktlar – Xəzər xaqanlığının yəhudi dini ilə təması, Osmanlı tolerantlığı, Azərbaycan multikulturalizmi – bu iki xalqın keçmişdən gələcəyə uzanan paralel yürüşünün səssiz şahidləridir.

*Bu kitab sadəcə tarixin salnaməsi deyil – bu, xalq yaddaşının, qarşılıqlı anlaşmanın, dinlər və mədəniyyətlər arasında olan zərif körpülərin izahlı xəritəsidir. Kitab daha geniş təhlillər tələb etsə də bu kiçik məqalədə gəldiyiniz nəticə budur ki, Ələsgər Siyablı bu əsəri ilə həm tarixə işıq salır, həm də müasir dövr üçün diplomatik, ictimai və mədəni mesajlar verir. Kitab oxucunu düşünməyə, öz etnik yaddaşını gözdən keçirməyə, bəlkə də dəyişməyə çağırışdır.*

*Bugünkü dünyada belə çağırışlara ehtiyac çoxdur, çünki tarix harda qırılırsa, yaddaş orda qanayır.*




Oxu, oxut, abunə ol!